6 dekabr 2019-cu il

CEPEJ(2019)21

**ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)**

## Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti
## CEPEJ-in mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsi

# Mediasiya prosesində müştərilərə kömək etmək üçün vəkillər üçün təlim proqramı

*Sənəd Avropa Vəkil və Hüquqşünas Cəmiyyətləri Şurası (CCBE) ilə birgə hazırlanmışdır*

***CEPEJ-in 33-cü plenar iclasında qəbul edilmişdir***
***Strasburq, 5 və 6 dekabr 2019-cu il***

*Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız Avropa Şurası məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

**Giriş**

Vəkillər mübahisələrin idarə edilməsi proseslərində mühüm rol oynayır və mübahisə vəziyyətlərinin onların müştəriləri üçün necə həll olunmasına böyük təsir göstərmək potensialına malikdirlər. Buna görə də vəkillərin mübahisələrin həlli proseslərinin bütün növlərində, istər məhkəmə prosedurlarında, istərsə də barışıq sazişinin bağlanmasında, o cümlədən mediasiya prosesində müştərilərə effektiv yardım etmək üçün zəruri olan dərin məlumatlılıq və müvafiq texniki vərdişlər nümayiş etdirə bilmələri vacibdir. Vəkillərin müştərinin maraqlarına uyğun hərəkət etmək vəzifəsi daşıdığını nəzərə alsaq, vəkillər öz müştərilərinə mübahisələrin həlli üçün ən uyğun prosesin seçilməsi ilə bağlı məsləhət verərkən həmişə bütün variantları nəzərdən keçirməlidirlər.

Bu təlim proqramı Avropa Vəkil və Hüquqşünas Cəmiyyətləri Şurası (CCBE) və Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyası (CEPEJ) tərəfindən birgə tərtib edilmiş **"Vəkillər üçün mediasiyaya dair təlimat"ın** həyata keçirilməsini dəstəkləmək məqsədilə hazırlanmışdır. Həmin Təlimatda qeyd olunduğu kimi, vəkillərin mediasiya üzrə maarifləndirilməsi və hazırlıq keçməsi vacibdir.

Aşağıdakı təlim proqramının məqsədi vəkillər üçün təlim xidmətləri göstərən vəkil birliklərinə və hüquqşünas cəmiyyətlərinə mediasiya üzrə istifadəyə hazır olan baza səviyyəli təlim proqramını təklif etməkdir ki, onlar sonradan bu proqramı sərbəst şəkildə inkişaf etdirə və könüllülük əsasında vəkillər üçün öz təlim proqramlarında istifadə edə bilərlər.[1]

Təlim proqramı vəkilləri bütün mediasiya prosesi ərzində müştərilərə uğurla kömək etmək üçün lazım olan alətlər və metodlarla təmin etmək məqsədilə hazırlanmışdır. Əgər vəkillər özləri mediator kimi fəaliyyət göstərmək istəyirlərsə, bu məqsədlə hazırlıq proqramı keçməlidirlər. CEPEJ tərəfindən 2019-cu ilin iyun ayında qəbul edilmiş “Mediasiya təlimi proqramlarının hazırlanması və monitorinqi üzrə təlimatlar” bu cür təlimin işlənib hazırlanması üçün mühüm baza təşkil edir (CEPEJ (2019)8).

Təklif olunan təlim proqramı vəkil birliklərinin və hüquqşünas cəmiyyətlərinin öz ehtiyaclarına və şəraitlərinə uyğun olaraq sərbəst şəkildə korrektə edə və ya uyğunlaşdıra biləcəyi üç hissədən ibarətdir. Buna görə də, təlimin müddətlərində dəyişiklik edilə, eləcə də proqramın özü dəyişiklik edilməklə həyata keçirilə bilər.

Eksperimental öyrənməyə – praktik məşğələlərə və müzakirələrə adekvat vaxt ayrılması vacibdir. Təlimin vaxtının ən azı 50 faizini bu cür məşğələlərə ayırmaq tövsiyə olunur.

---

[1] Avropa Şurasının bəzi üzv dövlətlərində vəkil birlikləri və hüquqşünas cəmiyyətləri özəl birliklər deyil, publik hüquqi şəxslərdir və prinsip etibarı ilə vəkillərə təlim xidmətləri təklif etmirlər. Vəkillər (deontoloji vəzifə kimi) istənilən halda mediasiya və mübahisələrin digər alternativ həlli proseslərini məhkəmə mübahisələrinin həlli prosesləri ilə eyni şəkildə nəzərdən keçirməlidirlər.

**1-ci fəsil: Prinsiplər, etika və mübahisələrin idarə edilməsi**

Təlimin bu hissəsi ən nəzəri hissədir və bəlkə də onlayn qaydada (e-öyrənmə) həyata keçirilə bilər. Bununla belə, iştirakçılar bilməlidirlər ki, bu kursu başqaları ilə birlikdə keçmək daha qənaətbəxş təcrübə olar.

Giriş: Etik və humanist prinsiplər əsasında mübahisənin barışıq yolu ilə həllinin mümkün üsullarından biri kimi mediasiya ilə tanışlıq; qarşıdurmanı istisna edən praktika və yanaşmaların müxtəlifliyinə açıqlıq; mediasiyada vəkilin rolunu başa düşmək; və empatiya (başqasının hisslərini anlama) vərdişləri kimi qeyri-texniki bacarıqların inkişafına aktiv maraq olmasını tələb edən praqmatik şəxsi layihədə iştirak.

Günün məqsədləri: İştirakçılar milli, beynəlxalq və Avropa hüququ, Mediatorlar üçün Avropa davranış kodeksi, Mediasiya xidməti göstərənlər üçün Avropa davranış kodeksi və Vəkillər üçün mediasiyaya dair təlimat barədə zəruri məlumatlar əldə edəcək və mediasiyanın müxtəlif növlərinə və üslublarına nəzər salacaq; mediasiyanın etik və deontoloji aspektləri və mediasiyada vəkillərin rolu haqqında anlayış əldə edəcək və mübahisə və böhran vəziyyətlərinin qarşısının alınması və idarə olunması üzrə bacarıqlarını təkmilləşdirəcəklər.

**Günün proqramı:**

- **Mediasiya qanunvericiliyi və etikası:**

  - Mövcud hüquq və məhkəmə fəaliyyəti kontekstində mübahisələrin alternativ həllinin (MAH), o cümlədən mediasiyanın fəlsəfəsi, peşə etikası qaydaları və məqsədləri;
  - Mediasiyaya və daha geniş mənada MAH-a şamil olunan milli, beynəlxalq və Avropa hüquqi bazası və onun tətbiqinin vəkillər üçün praktiki nəticələri (mediasiyanın ümumi qaydaları və ayrı-ayrı dövlətlərdə mediasiyanı fərqləndirən xüsusi qaydalar);
  - Mediatorlar üçün Avropa davranış kodeksi, Mediasiya xidməti göstərənlər üçün Avropa davranış kodeksi və Vəkillər üçün mediasiyaya dair təlimat;
  - MAH mexanizmlərinin fərqlilikləri, oxşarlıqları və bir-birini tamamlayan cəhətləri;
  - Mediasiya konsepsiyası;
  - Mediasiyanın müxtəlif növləri və üslubları (ənənəvi və məhkəmə tipli mediasiya; mediasiyanın fasilitativ, qiymətləndirici və transformativ üslubları; məcburi, könüllü və məhkəmənin göndərişinə əsaslanan mediasiya);
  - Mediasiya prosesi və mediasiya prinsipləri, habelə mediatorun vəzifələri;
  - Mediasiyanın və mübahisələrin alternativ həlli metodlarının hüquq strategiyasına daxil edilməsi;
  - Mediasiya və MAH-da vəkillərin rolu; və
  - MAH ilə bağlı deontoloji aspektlər.

- **Mübahisələrin idarə edilməsi:**

  - Mübahisə proseslərinin anlayışı, əsas prinsipləri və dinamikası;
  - Mübahisələrin eskalasiyası və deeskalasiyası;
  - Mübahisələri anlamaq, qarşısını almaq və idarə etmək üçün ənənəvi və alternativ metodlar və strategiyalar; və
  - Məhkəmə çəkişmələrinin və MAH-ın üstünlükləri, zəif cəhətləri və istifadəsinin xüsusiyyətləri.

**2-ci fəsil: Mediasiya prosesi və bu prosesdə iştirak edən vəkilin rolu**

Giriş: Mediasiya prosesində vəkillərə önəmli yer verilməlidir ki, onlar öz rollarını tam öhdələrinə götürə və müştərilərinə bacardıqları qədər dəstək ola bilsinlər.

Tədrisin məqsədləri: İştirakçılar mediasiya prosesinin müxtəlif mərhələləri və onların hər birində vəkilin rolu haqqında anlayış əldə edəcək; danışıqlar aparmaq və əqdlər bağlamaq bacarıqlarını təkmilləşdirəcək; dinləmə və qarşılıqlı ünsiyyət metodları ilə tanış olacaq; və praktik təcrübə qazanmaq üçün praktik məşğələlərdə iştirak edəcəklər.

**Günün proqramı:**

- **Mediasiyaya hazırlıq:**

  - Mediasiya praktikası: mediasiya müqaviləsi, mediasiyanın keçirilmə yeri, lazımi iştirakçıların (məsləhətçilər, vəkillər, qanuni nümayəndələr) iştirakının təmin edilməsi, ilkin məsələlər, üçüncü tərəfin təsdiqlənməsi, plenar iclas, qrup iclasları;
  - Vəkil-müştəri münasibətləri: müştəri ilə görüş, müştəri ilə ünsiyyət, müştərini mediasiya haqqında məlumatlandırma, risklərin təhlili və müştərinin hazırlanması (işin güclü və zəif tərəflərinin təhlili, ehtimal olunan nəticələr baxımından işin xərcləri, işin hal-hazırda əminliklə nail oluna biləcək həlli ilə sonradan daha yaxşı razılaşmanın əldə edilməsi perspektivi arasında müqayisə və s.);
  - Mediasiya prosesinə və onun nəticələrinə üstünlük verilməsi (məhkəmədə iddia qaldırmaq əvəzinə), o cümlədən məsuliyyət risklərinin qiymətləndirilməsi;
  - Mediatorun seçilməsi və təyin edilməsi;
  - Mediatorun neytrallığı və onun üçün maraqlar toqquşmasının olmaması;
  - Mediasiyadan istifadə barədə müqavilə / prosesdə iştirak qaydaları;
  - Mediasiya xidmətinin haqqı; və
  - Strategiya seçimi: danışıqlar, mediasiya, məhkəmə prosesi.

- **Mediasiya prosesində müştəriyə yardım göstərilməsi:**

  - Mediatorun rolunun izah edilməsi (müştəriyə köməklik göstərmə və məsləhət vermə);
  - Mediasiyanın müxtəlif mərhələlərində vəkilin mühüm rolu;
  - Vəkilin mediasiya prosesində vəzifələri (səriştəlilik vəzifəsi, düzgün məlumat vermək öhdəliyi və s.);
  - Mediasiya prosesindəki digər tərəflə və onun vəkili ilə mübadilələr;
  - Mediasiya prosesində üçüncü tərəflər; və
  - Mediasiya prosesində vəkillərin işinin səmərəliliyi və ədalətli metodları.

- **Ünsiyyətin vacibliyi:**

  - Mediasiya prosesində effektiv ünsiyyətin texniki əsasları;
  - Mübahisə və ünsiyyət;
  - Qeyri-zorakı ünsiyyət mexanizmləri; və
  - Ünsiyyət və emosiyaların idarə olunması.

- **Danışıqlar:**

  - Danışıqların ümumi nəzəriyyəsi (hazırlıq və mərhələlər);
  - Danışıqlar üçün texniki baza;
  - Danışıq aparma strategiyaları; və
  - Distribyutiv və ya kollaborativ (maraqlara əsaslanan) danışıqlar.

- **Danışıqlar zamanı emosiyalar:**

  - Aktiv dinləmə;
  - Emosiyaların dərki; və
  - Empatiya.

- **Praktik məşğələlər – senarilər:**

Təlim proqramının iştirakçıları üçün aşağıdakı kimi praktik məşğələlərin keçirilməsi tövsiyə olunur:

- mediasiya üzrə rollu oyunda iştirak etmək, mediasiya ilə mübahisələrin həllinin digər üsulları arasındakı fərqləri hiss etmək üçün bütün rolları (tərəflər, onlara kömək edən vəkillər, mediatorlar[2]) ifa etmək;

[2] Mediatorların rolunu ilk növbədə mediasiya sahəsində daha çox biliyə və təcrübəyə malik olan vəkillər yerinə yetirməli və ilk növbədə mediator kimi təlim keçmiş vəkillərin mediator qismində çıxış etməsinə üstünlük verilməlidir. Digər iştirakçılara mediator roluna başlamazdan əvvəl hər bir mərhələdə istifadə olunacaq mediasiya prinsipləri, mərhələləri, metodları və üsulları haqqında qısa izahatlar təqdim edilməlidir.

- iş nümunələrini öyrənmək; və
- mümkün olduqda real həyatda mediasiya seanslarını müşahidə etmək və hər zaman konfidensiallığa riayət etmək.

**3-cü fəsil: Mediasiyadan düzgün istifadə**

Giriş: Vəkillər və onların firmaları üçün mediasiyanın professional, strateji, maliyyə üstünlükləri barədə; habelə razılaşmanın həlledici mərhələsində öz müştərilərinə mediasiya prosesindən mümkün olan ən yaxşı nəticəni əldə etməkdə köməklik göstərmək baxımından vəkillərin iştirakının vacibliyi haqqında məlumat vermək; məhkəmə təcrübəsi, eləcə də milli səviyyədə mövcud olan presedent hüququ əsasında mediasiyanın inkişafını öyrənmək.

Tədrisin məqsədləri: İştirakçılar mediasiyanı öz peşə praktikalarına inteqrasiya edə biləcək; mediasiyanı gündəlik işlərində tətbiq edə biləcək; mediasiya haqqında maddəni/müqaviləni, mediator ilə müqaviləni və mediasiya yolu ilə barışıq barədə sazişi hazırlamağı bacaracaq; müqavilənin mərhələlərini anlayacaq və nəticələrini dərk edəcək; mediasiya dəstəyinə görə hesab-faktura təqdim etməyi bacaracaq; və mediasiya və MAH üzrə milli təcrübənin və presedent hüququnun inkişafını başa düşəcəklər.

**Günün proqramı:**

➢ **Mediasiya və barışıq sazişləri: mərhələlər, sazişin/müqavilənin hazırlanması, icrası:**

✓ **Saziş/müqavilə:**

- Vəkilin müştərinin hüquqlarının müdafiəsi işində ixtisaslaşmış həmsöhbət kimi kreativliyi;
- Mediasiyaya razılığın mətninin, tərəflərlə mediator arasında müqavilənin və mediasiya yolu ilə barışıq sazişinin mətninin razılaşdırılması;
- Mediasiya haqqında müqavilənin, tərəflərlə mediator arasında müqavilənin və mediasiya yolu ilə barışıq haqqında sazişin hazırlanması;
- Mediasiya haqqında müqavilənin, tərəflərlə mediator arasında müqavilənin və mediasiya yolu ilə barışıq haqqında sazişin bağlanması;
- Mediasiya haqqında müqavilənin, tərəflərlə mediator arasında müqavilənin və mediasiya yolu ilə barışıq haqqında sazişin effektivliyinin təhlili.

✓ Müqavilə/saziş bağlandıqdan sonra:

- Müqavilənin/sazişin icrası (milli, beynəlxalq və Aİ səviyyəsində);
- Müqaviləyə/sazişə riayət edilməsi və ya edilməməsi; və
- Mediasiya zamanı verilən məlumatların və ifadələrin konfidensiallığı.

➢ **Hüquq firmaları üçün üstünlüklər:**

✓ Mediasiya və MAH məsələlərində milli presedent hüququ və məhkəmə təcrübəsi:

- Presedent hüququ və məhkəmə təcrübəsi (müvafiq kontekstdə mediasiyaya mübahisələrin həllinin qəbul edilmiş elementi kimi baxmaq).

✓ Mediasiya hüquq firmaları üçün fürsət kimi:

- Hüquq firmaları üçün mediasiyanın (və MAH mexanizmlərinin) üstünlükləri: mediasiya əlavə hüquq praktikası aləti kimi;
- Məhkəmə strategiyasında mediasiyanın (və MAH mexanizmlərinin) üstünlükləri;
- Mediasiyanın tarif və maliyyə aspektləri (müştəri üçün güzəştlər, stimullar, tariflər, hesab-fakturalar);
- Sahələrarası bacarıqlar və səriştələr, həyati bacarıqların əhəmiyyəti; və
- Mediasiya yardımı üçün nümunəvi mandatlar (səlahiyyətləndirmə nümunələri), professional mandat, etibarnamə.

- **Praktik məşğələlər/situasiyalar:**

  - Mediasiya haqqında müqavilənin, tərəflərlə mediator arasında müqavilənin və mediasiya yolu ilə barışıq haqqında sazişin hazırlanması;
  - Vəkillər tərəfindən müvafiq yurisdiksiyada mediasiyadan müştərilərinin xeyrinə ədalətli və səmərəli istifadə edilməsinə dair müzakirələr və "beyin həmləsi" metodundan istifadə;
  - Mediasiya sessiyalarını müşahidə etmək.

**Tədrisdən əldə edilməli olan nəticələr**

İştirakçılar bu kursu bitirdikdən sonra aşağıdakıları edə biləcəklər:

- ✓ Konkret işlərdə mediasiya və ya mübahisələrin digər alternativ həlli üsullarının məqsədəuyğunluğunu qiymətləndirməyi.

- ✓ Müştərilərə və digər maraqlı tərəflərə vəkilin mediasiyada rolunu izah etməyi.

- ✓ Müştəriləri və digər maraqlı tərəfləri mübahisələrin həlli prosesi kimi mediasiyaya təşviq etməyi.

- ✓ Mediasiya prosesində müştəriləri təmsil etməyin faydalı və lazımsız üsullarını ayırd etməyi.

- ✓ Vəkillərin mediasiya prosesində malik ola biləcəyi müxtəlif rol və vəzifələri sadalamağı.

- ✓ Müvafiq mediasiya bacarıqlarını nümayiş etdirməyi, məsələn:
  - Aktiv dinləmə;
  - Danışıqlar aparma strategiyasının planlaşdırılması;
  - Çətin davranışların idarə edilməsi;
  - Maraqları mövqelərdən ayırmaq;
  - Reallıq testləri və BATNA [*Best Alternative to a Negotiated Agreement* – danışıqlar uğursuz nəticələnəcyi təqdirdə ən yaxşı alternativ variant] və WATNA-nın [*Worst Alternative to a Negotiated Agreement* – danışıqlar uğursuz nəticələnəcyi təqdirdə ən pis alternativ variant] istifadəsi;
  - Mediasiyadan lazımi qaydada istifadə etmək; və
  - Effektiv ünsiyyət.

- ✓ Mediasya prosesində yarana biləcək etik məsələləri idarə etməyi.

- ✓ Mediasya sənədlərini, məsələn, mediasiya müqavilələrini və mediasiya yolu ilə barışıq haqqında sazişləri tərtib etməyi və qiymətləndirməyi.

- ✓ Müvafiq yerli mediasya qanunvericiliyinə və müvafiq hallarda transsərhəd mediasya qanunvericiliyinə əməl etməyi.

- ✓ Mediasya/MAH üçün əlverişli olan səmərəli və ədalətli hüquqi praktikasını formalaşdırmağı və tətbiq etməyi.